# Toronto Universiteti

**Yerləşir:** Kanada, Ontario əyaləti, Toronto şəhəri
**Yaranma tarixi:** 1827-ci il
**Tipi:** Dövlət
**Akademik heyəti:** 14038 nəfər
**Tələbələrin ümumi sayı:** 86709 nəfər
**Rəsmi saytı:** utoronto.ca

Toronto Universiteti *(University of Toronto)* Şimali Amerikanın ən yüksək intellektual keyfiyyətə malik elmi-tədqiqat mərkəzlərindən biridir. Ali məktəb Kanadanın Ontario əyalətinin Toronto şəhərində yerləşir. 1926-cı ildən Toronto Universiteti “Amerika Universitetləri Assosiasiyası”nın üzvüdür. Universitet Böyük Britaniyanın “The Times Higher Education World Reputation Rankings” jurnalının 2016-cı il üzrə reytinq cədvəlində dünyanın ən nüfuzlu universitetləri arasında 26-cı, “QS World Universities Rankings” jurnalının 2015-2016-cı tədris ili üzrə reytinq sıralamasında 34-cü yerdədir. “Maclean’s” jurnalının 2016-cı ildə ölkənin ən yaxşı və innovativ universitetlərinin milli reytinq cədvəlində isə Toronto Universiteti 1-ci yeri tutub. Toronto Universitetinin ədəbi tənqid və kommunikasiya nəzəriyyələri proqramları üzrə tanınan Toronto məktəbi dünyada böyük nüfuza malikdir. Ali məktəb hər il Kanada iqtisadiyyatına 15,7 milyard dollar xeyir verir. Universitet son üç il ərzində Şimali Amerikada hər hansı müəssisədən daha çox sayda tədqiqat və texnologiyalara əsaslanan 61 yeni kompaniya yaradıb.





*Kimya laboratoriyasında*



*Universitetin kampusunda*



*2016-cı ilin məzunları*

## Tarixi

1827-ci il martın 15-də kral IV Georq Yuxarı Kanadada Kral Kollecinin yaradılması haqqında xartiya imzalayır. Dini yönümlü kollecin ilk prezidenti Toronto şəhərinin Anqlikan kilsəsinin yepiskopu Con Straçan təyin edilir. Həmin il Kral Kollecinin üçmərtəbəli yunan intibahı üslubunda inşa edilmiş və hazırda tarixi abidə kimi qorunan binası tikilir. C.Straçanın rəhbərliyi altında fəaliyyət göstərən kollec İngiltərə kilsəsi və elit Britaniya koloniyaları ilə sıx əlaqələr qurur. Yarandığı gündən islahatçı siyasətçilər kolleci dünyəvi ali təhsil müəssisəsinə çevirmək məqsədilə ruhanilərlə gərgin mübarizə aparırlar. Uzun mübahisələrdən sonra 1849-cu ildə Yuxarı Kanadanın yeni yaradılmış hökuməti səs çoxluğu ilə Kral Kollecinin Toronto Universiteti adlandırılması haqqında qərar verir. Ali məktəb bütünlüklə kilsə ilə əlaqəni kəsir. Bu hadisədən bir il öncə C.Straçan istefa verir və Anqlikan kilsəsinin özəl seminariyası olan Triniti Kollecinin yaradılması işinə başlayır.

1878-ci ildə universitetin Tətbiqi Elmlər Məktəbi yaradılır və Skule adlandırılır. Toronto Tibb Məktəbi 1887-ci ildə yaradılsa da, tibb fakültəsi universitetdə 1843-cü ildən fəaliyyət göstərirdi. 1887-ci ildə universitetdə hüquq, bir il sonra isə stomatologiya fakültələri açılır. 1884-cü ildən ali təhsil müəssisəsinə qızların qəbulu aparılır.

1890-cı ildə Toronto Universitetində güclü yanğın baş verir və nəticədə 1853-cü ildə yaradılmış Universitet Kollecinin çox hissəsi və kitabxanadakı 33 min cild kitab yanır. Universitet bu itkiləri yalnız iki ilə bərpa edir. Toronto Universitetində 10 il ərzində kollegial rəhbərlik sistemi formalaşır və bir neçə yeni kilsə kollecləri yaradılır. 1896-1991-ci illərdə Toronto Universiteti Kral Konservatoriyasına, 1912-1968-ci illərdə isə Ontario Kral Muzeyinə rəhbərlik edir. Bu müəssisələr hazırda müstəqil fəaliyyət göstərsələr də, universitetlə sıx əməkdaşlıq edirlər. 1901-ci ildə Toronto Universiteti mətbuatı yaradılır. 1910-cu ildə universitetin pedaqogika fakültəsi Toronto Universiteti Məktəbləri adlı məktəb laboratoriyası yaradır.

Birinci və İkinci Dünya müharibələri zamanı universitet durğunluq dövrünü yaşayır, tələbə və müəllimlər könüllü orduya gedirlər. Universitetdə müharibədə həlak olanların şərəfinə 44 metr hündürlükdə Əsgər Qülləsi ucaldılır. Qüllənin üzərində hər iki müharibədə həlak olanların adları həkk edilir. Hazırda həmin qüllə Toronto Universitetinin simvollarından biridir.

1935-ci ildə Riçmond Hill şəhərində Toronto Universitetinin Devid Danlep Rəsədxanası, 1949-cu ildə isə Aerokosmik Tədqiqatlar İnstitutu tikilir. 1964-cü ildə universitetin Skarboro, 1967-ci ildə isə Mississauqa kampusları yaradılır. 1959-cu ildə Toronto Universitetinin nəzdində yaradılan York Universiteti altı il sonra müstəqillik əldə edir.

1980-ci ildən başlayaraq Toronto Universiteti dövlət tərəfindən maliyyələşdirməni azaldır və yardımlar hesabına vəsait toplamağa daha çox diqqət yetirir. 80-ci illərdə təhsil müəssisəsi 1 milyard Kanada dollarından çox maliyyə yardımı alır. 2001-ci ildə universitetdə “Citizen Lab” adlı laboratoriya yaradılır. Bu laboratoriya İnternet senzurasına qarşı mübarizə aparır.

## Universitet bu gün

Toronto Universitetinin yerləşdiyi Toronto şəhəri Kanadanın ən böyük şəhərlərindən və dünyanın mədəniyyət mərkəzlərindən biridir. Təxminən 10 min akrlıq ərazidə yerləşən şəhər Ontario gölünün yaxınlığında salınıb və kontinental iqlimə malikdir. Toronto beynəlmiləl şəhərdir və burada bir çox millətlərin nümayəndələri yaşayır. Bununla yanaşı, şəhər Amerika qitəsinin ən təhlükəsiz meqapolislərindəndir, belə ki, burada yaşayan bütün xalqlar münaqişəsiz həyat sürür. Toronto Universiteti Müqəddəs Georq (163 akr), Mississauqa (224 akr), Skarboro (300 akr) kampuslarından ibarətdir. Müqəddəs Georq kampusu Toronto şəhərinin mərkəzində yerləşir və tarixi memarlıq abidələrinə, əsrarəngiz parklara, yaşıllıqlara malikdir. Kampusda intibah, qotik, klassik və s. üslublarda tikilmiş memarlıq abidələri buraya çoxlu sayda turist cəlb edir. Müqəddəs Georq kampusunda Tətbiqi Elmlər və Texnika, Musiqi, Fiziki Tərbiyə və Sağlamlıq kollecləri yerləşir.

Mississauqa kampusu Toronto şəhərinin qərbindədir. Kampusda universitetin nəşriyyatı, radiostansiyası, Tələbə Təşkilatının binası vardır. Bu şəhərciyi universitetin ən qonaqpərvər, dostluq münasibətlərinin möhkəm olduğu kampus adlandırırlar. Kampusda, həmçinin, Heyzel McCallion akademik tədris mərkəzi, kitabxana, istirahət guşələri, idman kompleksləri yerləşir. Bu kampusda əcnəbi tələbələr daha çox məskunlaşıb.

Skarboro kampusu Toronto şəhərinin şərqində Highland Krik vadisinin yanındadır. Bu kampusda daha çox modern binalara rast gəlinir. Skarboroda, əsasən, qlobal iqtisadi tendensiyalar, bazar iqtisadiyyatının tələblərinə cavab verə biləcək innovativ proqramlar həyata keçirilir.

Universitetdə minə yaxın tələbə təşkilatı, klubları fəaliyyət göstərir. Burada tələbələrdən ibarət universitet teatrı, musiqi ansamblı, caz orkestri, xor kapellası, ümumilikdə *“Varsity Blues”* adlanan 44 idman komandası, həftədə iki dəfə dərc olunan *“Varsity”* tələbə qəzeti, *“Hart House Review”* ədəbi jurnalı, CIUT FM radiostansiyası mövcuddur. Hər kollecin, məktəb və fakültənin ayrıca olaraq qəzet, jurnal və digər nəşrləri var.

Toronto Universitetinin nəzdində fəaliyyət göstərən kolleclər aşağıdakılardır: Təsis kollecləri - İnnis, Yeni, Universitet, Vudvort; ilahiyyat kollecləri - Noks, Recis, Vikliff; federativ (birləşdirilmiş) kolleclər - Müqəddəs Mixail, Universitet, Triniti Universitet, Müqəddəs Hilda, Viktoriya Universitet, Emannuil; diplomlu mütəxəssis (ali) kolleci - Messi.

Bu ali təhsil müəssisəsində mövcud olan fakültə və məktəblərdən Tətbiqi elmlər və mühəndislik, Elmlər və incəsənət, Musiqi, Memarlıq, Landşaft və dizayn, Meşə təsərrüfatı, Tibb, Stomatologiya, Tibb bacısı, Əczaçılıq, Fiziki tərbiyə və sağlamlıq, Səhiyyə, İnformatika, Hüquq, Pedaqogika, Dövlət idarəçiliyi, Menecment, Sosial fəaliyyət, İlahiyyat və digərlərini qeyd etmək olar. Universitetdə tələbələrə 800-dən çox incəsənət, biznes və digər proqramlar, dünyanın 40 ölkəsində 130 mübadilə proqramı, 16 ölkədə yay proqramları təklif edilir.

Toronto Universitetinin 44 kitabxanası var. Universitetin kitabxana sistemi böyüklüyünə görə Harvard, Yel universitetlərinin kitabxanalarından sonra Şimali Amerikada üçüncü yerdə durur. Kitabxana sisteminə 19,3 milyon cild kitab, 5,6 milyon mikrofilm, 70 min dövri nəşr, 1 milyon xəritə və s. daxildir. Universitetin ən böyük kitabxanası Robartsdır. Burada sosial və humanitar elmlərə aid beş milyondan çox kitab var. Hər gün kitabxananın xidmətlərindən 18000 nəfər istifadə edir. Tomas Fişer kitabxanasında nadir kitablar və əlyazmalar, qədim Misir papirusları, inkunabulalar (kitab çapı icadının ilk dövründə yığma hərflərlə çap olunmuş ilk kitab), librettolar qorunur. Toronto Universitetinin kitabxana sistemi 2005-ci ildən internet şəbəkəsinə qoşulub.

Toronto Universitetinin İncəsənət Mərkəzi 4 əsas kolleksiyadan ibarətdir. Malkove kolleksiyasında xristianlıqdan əvvəlki və Bizans dövrünə aid heykəltəraşlıq nümunələri, tunc, mebel, ikona və ədəbi əsərlər, yunan-Roma dövrünə aid şüşə əşyalar və daş relyeflər, rəssam Böyük Lukas Kranaxın 1538-ci ilə aid olan “Adəm və Həvva” adlı sənət əsəri saxlanılır. Toronto kolleksiyasına Kanadanın incəsənət nümunələri daxildir.

Toronto Universitetinin rektoru Maykl Uilson, Meriç Gertledir. Universitetin akademik, inzibati və tələbə məsələləri ilə 1971-ci ildə yaradılmış İdarəçilər Şurası məşğul olur. Toronto Universiteti dünya elminə böyük töhfələr verib. Burada ilk elektron kardiostimulyator, süni qırtlaq, kimya lazeri hazırlanıb, mədəaltı vəzinin transplantasiyası əməliyyatı, bir çox xəstəliklərin müalicəsi həyata keçirilib. Universitetdən 2 km. aralıda yerləşən Toronto şəhərinin Diskoveri rayonunda 5000 aparıcı tədqiqatçı hər il 1 milyard dollar dəyərində tibbi tədqiqatlar aparır. 1921-ci ildə burada tibb tarixində önəmli hadisələrdən olan insulin kəşf edilib. 1963-cü ildə beyin sümüyünün köçürülməsi əməliyyatının əsasını qoyan gövdə hüceyrələri aşkarlanıb. 1972-ci ildə “Cygnus X-1” tədqiqatları nəticəsində atmosferdə qara dəliklərin olması sübuta yetirilib. Universitetin astronomları Uran planetinin peykləri olan Kaliban və Sikoraksanı, Andromeda I, II, III qalaktikalarını aşkar ediblər. Universitet UTEC adlanan dünyada ilk operativ kompüterlərdən birini hazırlayıb, UNIVAC I-dən (ABŞ-da yaradılan ilk kommersiya kompüteri) sonra dünyada ikinci kommersiya kompüteri yaradıb. Toronto Universiteti bu gün də tədqiqatlarını sürətlə inkişaf etdirir və gələcəyin lider elmi-tədqiqat mərkəzi olmaq niyyətindədir.

## Büdcəsi və təhsil haqları

2015-16-cı maliyyə ilində Toronto Universitetinin illik büdcəsi 2,1 milyard dollar təşkil edib. Toronto Universitetinin endaument fondunun həcmi 2015-2016-cı tədris ilində tarixi həddə, 2 milyard dollara çatıb. Vəsaitin toplanmasında universitetin keçmiş məzunları olan və ali məktəbə rəğbət bəsləyən 90973 nəfər iştirak edib. Kampaniya yeni liderlərin hazırlanması, yeni ideyaların inkişaf etdirilməsi, istedadların aşkar olunması, onların mühüm dünya problemlərinin həllinə kömək edəcək ixtira və kəşflərini dəstəkləmək məqsədi güdür. Bu cür kampaniya universitetin bütün aspektlərinin sürətli inkişafına yol açır. Vəsaitin 523 milyon dolları universitetin inkişafına xidmət edən mühüm infrastruktur layihələrin, 881 milyon dolları innovativ layihələrin və qabaqcıl texnologiyaların inkişaf etdirilməsinə, 291 milyon dolları tələbələrin təhsil və tədqiqatlarına, 179 milyon dolları isə müəllimlərə kömək göstərilməsi üçün yığılıb.

Toronto Universitetində illik təhsil haqları təhsil səviyyələri, kampuslar üzrə dəyişir. Yerli tələbələr üçün bakalavr səviyyəsində illik təhsil haqları 2015-2016-cı dərs ilində 6220-13620 dollar, əcnəbi tələbələr üçün isə 38460-43540 dollar təşkil edib. Təhsilin magistr səviyyəsində illik təhsil haqları yerli tələbələrə ötən dərs ilində 7060-46620 dollara, əcnəbilərə isə 19550 - 52320 dollara başa gəlib.

2015-2016-cı tədris ilində Toronto Universitetində təhsil alan tələbələrin ümumi sayı 86709 nəfər olub. Tələbələr ali məktəbin 3 kampusunda bu cür paylanılıb: Müqəddəs Georq kampusunda toplam 59443 nəfər olmaqla 43375 nəfər bakalavr, 16059 nəfər magistr səviyyəsində, Mississauqa kampusunda toplam 14295 nəfər olmaqla 13693 nəfər bakalavr, 602 nəfər magistr, Skarboro kampusunda toplam 12980 nəfər olmaqla 12693 nəfər bakalavr, 287 nəfər magistr təhsil alıb. Yerli tələbələrin sayı 70778 nəfər (56523 bakalavr, 14255 magistr) olub. Ötən tədris ilində əcnəbi tələbələrin sayı 15931 nəfər (13238 nəfər bakalavr, 2693 nəfər magistr) təşkil edib. 2015-2016-cı tədris ilində ali məktəbdə dünyanın 165 ölkəsindən əcnəbi tələbə təhsil alıb. Onlar əsasən Çin (8891 nəfər), Hindistan (808 nəfər), ABŞ (632 nəfər), Koreya (551 nəfər), Braziliya (272 nəfər), Səudiyyə Ərəbistanı (244 nəfər), Nigeriya (222 nəfər), Birləşmiş Krallıq (210 nəfər), Tayvan (206 nəfər) kimi ölkələrdir. Universitetdə 14038 müəllim, 6470 inzibati işçi, 150 kitabxanaçı çalışır.

Ötən tədris ilində ali məktəbin məzunlarının bütün dünya üzrə sayı 552 minə çatıb. Məzunlar əsasən Kanada (503750 nəfər), ABŞ (24357 nəfər), Honkonq (5145 nəfər), Birləşmiş Krallıq (2878 nəfər), Avstraliya (1144 nəfər), Çin (1355 nəfər), Sinqapur (768 nəfər), Yaponiya (720 nəfər), Hindistan (714 nəfər), İsrailin (623 nəfər) payına düşür.

Toronto Universiteti tələbələrə edilən maliyyə yardımı və təqaüdlərə görə Şimali Amerikada əsas yerlərdən birini tutur. Universitetdə ələ, xüsusi istedada malik tələbələrə verilən təqaüdün məbləği orta hesabla 5035 dollar təşkil edir. Maliyyə durumu çətin olan tələbələrə əlavə 400-1000 dollar dəyərində qrant verilir. Təqaüd almaq istəyən tələbə bununla bağlı universitetə yazılı müraciət etməlidir.

Toronto şəhərində yaşamaq tələbələrə baha başa gəlir. Burada qiymətlər çox bahadır. Nəqliyyat, yaşamaq xərcləri tələbənin şəxsi büdcəsi hesabına ödənilir. Universitetdə təhsil alan əcnəbi tələbələr Ontario hökuməti tərəfindən tibbi sığortadan (UHIP) keçir. Universitetin tibbi sığortası 567 Kanada dollarıdır. Toronto Universitetinin hər üç kampusunda bir neçə yataqxana mövcuddur. Bu yataqxanalardan ən məşhurları İnnis, Çestnut, Ali, Loretto, Yeni, Uilson, Triniti, Sant-Hilda, Uitni, Morrison, qızlar üçün Ennsli, doktorantlar üçün Messi və digərləridir. Universitetin yataqxanalarında məskunlaşmaq istəyən tələbələr ərizə ilə ali təhsil müəssisəsinə müraciət etməlidirlər. Bu zaman tələbələrə hər bir şəraitlə təmin edilmiş otaq və mənzillər (1, 2 və daha çox otaqlı), xüsusi evlər təklif olunur. Yataqxanalarda 8 ay (1 tədris ili) qalmaq otaqlardakı şəraitdən asılı olaraq tələbələrə 7920-13474 Kanada dollarına başa gəlir. Evlərin aylıq qiyməti isə onların şəraitindən və yerləşdiyi ərazidən asılı olaraq 610-1000 Kanada dollarıdır. 2015-2016-cı tədris ilində universitetin Müqəddəs Georq kampusunda 6572, Mississauqa kampusunda 1544, Skarboro kampusunda 767 tələbə məskunlaşıb.

## Universitetin məşhur məzunları

Toronto Universitetinin məşhur məzunları arasında dövlət xadimləri, Nobel mükafatı laureatları vardır. Dövlət xadimlərindən Vaira Vike-Freiberqa (Latviyanın 6-cı prezidenti), Nur Həsənəli (Trinidad və Tobaqonun 2-ci prezidenti), Stefen Harper (Kanadanın 22-ci baş naziri), Pol Martin (Kanadanın 21-ci baş naziri), Lester Pirson (Kanadanın 14-cü baş naziri), Uilliyam Makkenzi Kinq (Kanadanın 10-cu baş naziri), Artur Meighenin (Kanadanın 9-cu baş naziri) adlarını çəkmək olar.

Toronto Universiteti 30-a yaxın Nobel mükafatı laureatı yetişdirib. Onlardan Frederik Bentinq, Con Ceyms Maklod, Oliver Smithis (tibb və fiziologiya üzrə), Lester Pirson, Jeyms Orbinski (sülh üzrə), Artur Leonard Skavlov, Bertram Brukhaus (fizika üzrə), Con Çarlz Polani, Volter Kohn (kimya üzrə) göstərmək olar. Ali məktəbin alimlərinin əksəriyyəti Amerika İncəsənət və Elmlər Akademiyasının üzvləri, Amerika Elminin İnkişafı Assosiasiyasının təqaüdçüləridir. Kanadanın 2 general-qubernatoru - Vinsent Messi və Andrienna Klarkson, ölkənin 4 sabiq baş naziri Uilyam Makenzi Kinq, Artur Meyen, Lester Pitson, Pol Ednar Martin, Latviyanın sabiq prezidenti Vaira Vike-Freiberqa və 10-a yaxın Nobel mükafatı laureatı universitetin fəxri məzunlarıdır.

**Oruc MUSTAFAYEV,**
*“Azərbaycan müəllimi”*